# Qlobal enerji təhlükəsizliyi, "yaşıl enerji"nin inkişafı

## Enerji sektorundakı aktual məsələlər Bakıda müzakirə edilir



İyunun 4-dən başlayaraq ölkəmizdə Bakı Enerji Həftəsi keçirilir. 30-dan çox ölkədən 300-dək şirkətin iştirak etdiyi Bakı Enerji Həftəsi özündə üç mötəbər tədbiri birləşdirir - 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil&Gas", 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 29-cu Bakı Enerji Forumunu.

Hər il keçirilən Bakı Enerji Həftəsi bütün dünyanın enerji sənayesi sahəsində mövcud olan liderlərini bir araya gətirir və bununla da diqqəti Azərbaycanın üzərinə cəmləşdirir.

Tədbirin önəmini dəyərləndirən ekspertlər qeyd edirlər ki, bu, ilk növbədə Azərbaycanın enerji siyasətinə verilən dəyərin göstəricisidir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov qəzetimizə açıqlamasında bildirib ki, Bakının Enerji Həftəsinə evsahibliyi etməsi mühüm iqtisadi hadisədir. Özündə üç mühüm tədbiri birləşdirən bu qlobal platforma enerji sektorundakı aktual məsələlərin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi dialoq məkanıdır. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər, layihələr və konfranslar enerji sahəsində yeni əməkdaşlıqların qurulmasına, təcrübə mübadiləsinə və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək edir. Tədbirə müxtəlif ölkələrin hökumət üzvləri qatılır, dövlət başçıları təbrik məktubu ünvanlayır. Bu, Azərbaycanın yürütdüyü enerji siyasətinə verilən yüksək qiymətdir.

ABŞ Prezidenti Cozef Baydenin Bakı Enerji Həftəsinin iştirakçılarına məktub ünvanladığını xatırladan deputat əlavə edib ki, bu tədbirə Vaşinqtonun da xüsusi marağı var: "ABŞ Azərbaycanın qlobal enerji təhlükəsizliyinin, xüsusilə Avropanın enerji təhlükəsizliyinin əsas dayaqlarından biri olduğunu, ölkəmizin etibarlı tərəfdaş kimi rolunu yüksək dəyərləndirir. ABŞ Prezidenti bu tədbirin enerji təşəbbüskarlığının nümunəsi olmaqla, noyabr ayında Bakının COP29-a evsahibliyi etməsinin vacibliyini dərk etməyə imkan verəcəyinə əminliyini ifadə edərək bu mötəbər toplantıya dəstək vermək iradəsini göstərir. COP29 Azərbaycana həm qlobal enerji təhlükəsizliyi, həm neft-qaz təchizatı, həm də bərpaolunan enerji ixracında mühüm rol oynamağa və bunu daha da artırmağa imkan verəcək".

A.Hüseynov qeyd edib ki, Cozef Baydenin məktubu ABŞ-nin Azərbaycanla enerjinin bütün sahələrində, o cümlədən də "yaşıl enerji" sahəsində əməkdaşlığını və dəstəkverici siyasətini təsdiqlədiyini bir daha göstərir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.9.